# HEYDƏR ƏLİYEV – MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QORUYUCUSU KİMİ

**Nərminə Əmirbəyova**
*0009-0004-1891-0026,*
*Azerbaijan State Oil and Industry University*
*E-mail: zamburek@mail.ru*
**Sevda Yusifova**
*0000-0002-2605-9997*
*Azerbaijan State Oil and Industry University*
*E-mail: sevda.yusifiva@hotmail.com*

## HAYDER ALIYEV – AS THE PROTECTOR OF OUR NATIONAL-MORAL VALUES

**Narmina Amirbeyova, Sevda Yusifova**

**Summary**

Heydar Aliyev is a great leader, a prominent representative of political diplomacy of the late 20th – early 21st centuries. He carried the responsibility for Azerbaijan on his shoulders, as a citizen, personality and leader, and brought his state and people out of trials. This man, who became the national and moral value of his people, possessed all the qualities of a statesman, thinker, politician, wise old man, strategist, diplomat and ideologist. The research work analyzed and briefly discussed the historical merits, far-sighted policies and high socio-political heritage of the world-famous leader, who paid great attention to the national and moral values of the Azerbaijani people. Protecting and developing the Azerbaijani language, national and moral values, adapting our education to world standards, building an army, taking our place as a state in the international world - these are the main priorities that were laid down during the reign of Geylar Aliyev and remain relevant to this day. The founding of modern Azerbaijan is generally associated with the name of Heydar Aliyev. It is no coincidence that in many modern studies, the promotion of his rich heritage, his ideas about moral, ethical and patriotic education is an important task for the education of modern youth, as well as for the development of our modern pedagogy.

**Key words**: Great Leader, national-moral value, morality, patriotism.

## HEYDƏR ƏLİYEV – MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QORUYUCUSU KİMİ

**Əmirbəyova Nərminə, Yusifova Sevda**

**Xülasə**

Ulu Öndər Heydər Əliyev XX əsrin sonu, XXI əsrin əvvəllərində siyası diplomatiyanın görkəmli nümayəndəsidir. O, 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, vətəndaş, şəxsiyyət, lider, kimi dövlətini və millətini tarixin sınaqlarından çıxaran Millət Atasıdır. Özü xalqının milli-mənəvi dəyərinə çevrilən bu şəxsiyyət, dövlət xadimi, mütəfəkkir, siyasətçi, müdrik ağsaqqal, strateq, diplomat, ideoloq kimi bütün səciyyələri də özündə daşıyırdı. Tədqiqat işində əsasən hakimiyyətdə olduğu dövrdə milli-mənəvi dəyərlərimizə sahib çıxan dünya şöhrətli rəhbərin tarixi xidmətləri, unudulmaz siması, uzaqgörən siyasəti və yuksək ictimai - siyası irsi təhlil olunaraq qısa nəzər salınmışdır. Dilimizin, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı, təhsilimizin dünya standartlarına uyğunlaşdırılması, ordu quruculuğu, beynəlxalq aləmdə dövlət kimi öz yerimizi almağımız - ümumiyyətlə müasir Azərbaycanın bünövrəsi Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, müasir araşdırmaların bir çoxunda Heydər Əliyevin müdrik kəlamlarının öyrənilməsi qarşıya məqsəd kimi qoyulmuş, xüsusilə də zəngin irsinin, onun mənəvi, əxlaq, vətənpərvərlik tərbiyəsi ilə bağlı fikirlərinin təbliğinin müasir gənclik üçün, habelə çağdaş pedaqoqikamız üçün çox böyük əhəmiyyətli olduğu vurğulanmışdır.

**Acar sözlər:** Ulu Öndər, milli-mənəvi dəyər, əxlaq, vətənpərvərlik.

## ГЕЙДАР АЛИЕВ – КАК ЗАЩИТНИК НАЦИОНАЛЬНО-МОРАЛЬНЫХ ЦЕННОСТЕЙ

**Нармина Амирбекова, Севда Юсифова**

**Резюме**

Гейдар Алиев – великий лидер,  видный представитель политической дипломатии конца XX – начала XXI века. Он неся  на своих плечах ответственность за Азербайджан, как гражданин, личность и лидер, вывел свое государство и народ из испытаний. Этот человек, ставший национальной и нравственной ценностью своего народа, обладал всеми качествами государственного деятеля, мыслителя, политика, мудрого старца, стратега, дипломата и идеолога. В исследовательской работе были проанализированы и кратко рассмотрены исторические заслуги, дальновидная политика и высокое общественно-политическое наследие всемирно известного лидера, уделявший большое внимание  национальными и нравственными ценностями азербайджанского народа. Защита и развитие азербайджанского языка, национальных и моральных ценностей, адаптация нашего образования к мировым стандартам, строительство армии, занятие своего места как государства в международном мире – вот основновные приоритеты, которые были заложены в период правления Гейлара Алиева и остаются актуальными и по сей день. Основание современного Азербайджана вообще связано с именем Гейдара Алиева. Неслучайно во многих современных исследованиях пропаганда его богатого наследия, его идей о нравственном, нравственном и патриотическом воспитании является важной задачей для воспитания современной молодежи, а также для развития нашей современной педагогики.

**Ключевые слова:** Великий Лидер, национально-нравственные ценности, нравственность, патриотизм.

**Giriş:** Ulu Öndər Heydər Əliyev XX əsrin sonu, XXI əsrin əvvəllərində siyası diplomatiyanın görkəmli nümayəndəsidir. O, 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, vətəndaş, şəxsiyyət, lider kimi  dövlətini  və millətini tarixin sınaqlarından çıxaran Millət Atasıdır. Özü xalqının milli-mənəvi dəyərinə çevrilən bu şəxsiyyət, dövlət xadimi, mütəfəkkir, siyasətçi, müdrik ağsaqqal, strateq, diplomat, ideoloq kimi bütün səciyyələri də özündə daşıyırdı. Tədqiqat işində əsasən hakimiyyətdə olduğu dövrdə milli-mənəvi dəyərlərimizə sahib çıxan dünya şöhrətli rəhbərin  tarixi xidmətləri, unudulmaz siması, uzaqgörən siyasəti və yuksək ictimai - siyası irsi təhlil olunaraq qısa nəzər salınmışdır. Dilimizin, milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı, təhsilimizin dünya standartlarına uyğunlaşdırılması, ordu quruculuğu, beynəlxalq aləmdə dövlət kimi öz yerimizi almağımız - ümumiyyətlə müasir Azərbaycanın bünövrəsi Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, müasir araşdırmaların bir çoxunda Heydər Əliyevin müdrik kəlamlarının öyrənilməsi qarşıya məqsəd kimi qoyulmuş, xüsusilə də zəngin irsinin, onun mənəvi, əxlaq, vətənpərvərlik tərbiyəsi ilə bağlı fikirlərinin  təbliğinin müasir gənclik üçün, habelə çağdaş pedaqoqikamız üçün çox böyük əhəmiyyətli olduğu vurğulanmışdır.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qoruyucusu olmaqla bərabər həm də, özü “milli-mənəvi dəyərimizə” çevrilmişdir. [14,107] Hər kəlməsində Azərbaycanın dünya birliyində öz layiq olduğu yeri tutmasını təmin etmək, Azərbaycanı demokratik, hüquqi, dünyəvi dövlətə çevirmək, soydaşlarımızın həmrəyliyinə nail olmaq və s. bunun kimi ümdə məsələləri əks etdirən amallar vardır. [6, 78]

“Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam”-deyən Ulu Öndər Azərbaycan dövləti və xalqı yaşadıqca xalqımızın yaddaşında və qəlbində yaşayacaqdır. Xalqımızın dahi oğlu 90-cı illərdə Vətəninə sahib çıxdı, onun dövlətçilik ənənələrini bərpa etdi, milli-mənəvi dəyərlərini qorumağa başladı.  O, alimlər alimi, dahi idi. Yaxşı bilirdi ki, cəmiyyət bir cox qanunları təbiətdən öyrənib. Təbiətin mizanı əzəli və əbədidir. Nə əkərsən, onu da biçərsən. O millət atası xalqa azadlıq bəxş etmək, soydaşlarını imperiya boyunduruğundan xilas etmək üçün əlində imkan, iqtidar var ikən əvvəlcə azadlığın toxumunu, ideyalarını Vətən tarlasına səpdi. Bu ideyaların münbit zəmində cücərib boy atması, sərt sovet rejiminin sazağından, şaxtasından qorunub ərsəyə çatması üçün əlindən gələni əsirgəmədi.  Məqalədə məhz bu istiqamətlər  elmi

obyektivlik prizmasından araşdırılmışdır, ciddi təhlil olunmuş, geniş ədəbiyyat bazası əsasında "Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qoruyucusu kimi", "Milli-mənəvi dəyərlərimiz və təhsil", "Heydər Əliyev milli-mənəvi dəyərimizdir" mövzuları müxtəlif müstəvilərdə tədqiq edilərək mövzunun özünəməxsus aktuallığı vurğulanmışdır. Həmçinin, tədqiqat işində analız-sintez, elmi müqayisə kimi elmi məntiqi üsullardan istifadə olunmuşdur.

***Heydər Əliyev milli-mənəvi dəyərlərimizin qoruyucusu kimi.*** Heydər Əliyev XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi bütün dünyada tanınmış, Azərbaycan xalqının milli sərvətidir. Məhz Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi formalaşdı, xalqın öz müqəddəratını həll edəcəyinə inamı yarandı, bu dahi şəxsiyyətlə ruhlandılar, onunla birlikdə addımlayacaqlarına əmin oldular. XX və XXI əsrlərin qovuşduğu zaman kəsiyində 30 ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və vətənini canından artıq sevən ən böyük azərbaycanlı, şərəfli adı bizim üçün həmişə əziz və unudulmaz olan Heydər Əliyevlə bağlı olmuşdur. Onun Azərbaycana rəhbərlik etdiyi illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsəti və dirçəlişi ilə əhatə olunmuşdur.

Azərbaycan mədəniyyətinin və incəsənətinin müxtəlif sahələri ta qədimdən inkişaf etmiş, dünya şöhrətli memarlıq məktəbində özünəməxsus iz buraxmışdır. Tarix boyu davam edən bu sivilizasiya XX əsrdə Azərbaycan torpaqlarından yan keçməmiş əksinə, misilsiz inkişaf yoluna qədəm qoymuşdur. Bu dövrün mədəniyyətinin ən yüksək naliyyətləri xalqımızın Ümumilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın və ölkəmizin tarixində böyük dönüş dövrü, mütərəqqi dəyişikliklər 1969-cu ildə Heydər Əliyevin Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə başladı. Bütün sahələri öz dərin zəkası ilə idarə etməyi bacaran dahi şəxsiyyət mənəvi-mədəni sahədə də ciddi uğurlara nail olmuş, buxovlanmış Azərbaycanı mədəni intibah və dirçəliş yoluna çıxartmışdır. Heydər Əliyev yaxşı dərk edirdi ki, hər bir xalqı ucaldan, tanıdan təkcə onun iqtisadi potensialı, hərbi gücü, təbii resursları deyil, birinci növbədə onun mədəniyyəti, mənəvi dəyərlər sistemidir.

Buna görə də siyasi hakimiyyətə başladığı ilk gündən Azərbaycanda mədəniyyətin, elmin, maarifin inkişaf etdirilməsi, xalqın mədəni- mənəvi dəyərlərinin araşdırılmasını özünün əsas fəaliyyət istiqaməti seçmişdi. Heydər Əliyev incəsənətin və incəsənət xadimlərinin milli-mənəvi dəyərlərin inkişafında rolunu yüksək qiymətləndirirdi. Azərbaycan KPMK-nın plenumundakı( 29 oktyabr 1971-ci il) çıxışında göstərirdi: "İncəsənət zəhmətkeşlərin tərbiyəsində, insanın mənəvi aləminin zənginləşməsində, şəxsiyyətin ahəngdar inkişafında mühüm vasitədir". Həmçinin, Heydər Əliyev öz çıxışlarında müsiqimizin və incəsənətimizin əsas problemlərinə toxunmuş, bu sahədəki görüləcək işlərin zaman zaman həllinə nail olmuşdur. Bu dövrdə Azərbaycan ərazisində mövcud olan çoxsaylı tarixi, dini və mədəniyyət abidələrinin mühafizəsi və bərpası istiqamətində təsirli tədbirlər həyata keçirilmişdir. 1973-cü ildə respublika ərazisində 2000 tarixi abidə dövlət mühafizəsinə götürülmüş, 11 abidə bərpa olmuşdur. [10,141 ]

Heydər Əliyev Azərbaycan klassiklərinin yaradıcılığının öyrənilməsi və təbliğinə böyük diqqət verirdi. Buna 1970-80-ci illər Azərbaycan KPMK-da qəbul etdiyi " Bədii ədəbiyyat klassikləri əsərlərinin tədqiqini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" xüsusi qərarı, Nizami Gəncəvinin, Nəsiminin, Füzulinin, C.Cabbarlının, Vaqifin, S.Vurğunun, M. Şəfi Vazehin və başqa klassiklərin ədəbi yaradıcılıq irsinin öyrənilməsi, nəşrinin və təbliğini gücləndirmək tədbirləri haqqında xüsusi qərarlar da sübut edir. Onun Azərbaycan milli-mədəni, tarixi irsinin qorunub saxlanılmasında on cildlik Azərbaycan Sovet Ensiklopediyasının nəşrinə nail olması xüsusi qeyd edilməlidir. Heydər Əliyevə qədər bir neçə dəfə bu mühüm işə başlamağa cəhd göstərilsə də, yalnız böyük öndərin qətiyyəti və siyasi iradəsi nəticəsində bu iş baş tutmuşdu. Heydər Əliyev bir–neçə dəfə Azərbaycan KPMK bürosunda ensiklopediya ilə bağlı məsələləri müzakirəyə çıxarmış, maliyyə problemlərini həll etmiş, ensiklopediya üçün İçərişəhərdə yeni inzibati bina tikdirmiş, maddi-texniki baza ilə bağlı məsələləri həll etmişdi. Əvvəlcə 50 min tirajla nəşri nəzərdə tutulan ASE Heydər Əliyevin iradəsi sayəsində 80 min tirajla nəşr edilmişdi.[10,141]

70-ci illərdə Azərbaycan teatrı özünün əsl dirçəliş dövrünü yaşayırdı. Heydər Əliyevin himayəsi, incəsənət insanlarına dövlət qayğısı sayəsində teatr sənəti sürətli inkişaf yoluna daxil olmuşdu.1974-cü ildə respublikada Azərbaycan teatrının 100 illik yubleyi geniş şəkildə qeyd edildi. Həmçinin, 70-ci illərdə Səməd Vurğunun, Müslüm Maqomayevin, Şövkət Məmmədovanın, Qara Qarayevin və s. bu kimi görkəmli incəsənət xadimlərinin təntənəli yubleyləri məzh Heydər Əliyevin hakimiyyəti və himayəsi sayəsində qeyd olunmuşdur. [1,30] Heydər Əliyev orta əsr Azərbaycan memarlığının öyrənilməsinə və təbliğinə xüsusi diqqət göstərirdi. Onun imzaladığı qərarla Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçivaninin 850 illik yubleyi 1976-cı ildə böyük təntənə ilə qeyd olunurdu. Elə həmin ildə Mömünə xatın türbəsinin qarşısında bu dahi sənətkarın abidəsinin təməli qoyulur.[10,141]

Müstəqil Azərbaycanın milli-mənəvi meyarları Heydər Əliyevin 70-80-ci illərdə formalaşdırdığı ədəbi mədəni irsin davamıdır. Bu illərdə millilik Heydər Əliyevin sayəsində böyük müdrüklüklə dövlət səviyyəsində aparılırdı. Sovet sisteminin sərt qaydalarına baxmayaraq respublikada böyük iqtisadi, elmi, mənəvi-intelektual potensialın yaradılması prosesini böyük siyasətlə aparan ulu öndər, uzaq gələcəyə hesablanmış müstəqil dövlətin təməl daşlarını bərkidirdi. Xalqımızın azadlıq ideyaları, azərbaycançılıq, dövlətçilik dəyərləri kütləvi şüurda yavaş-yavaş formalaşma prosesini keçirirdi. Azərbaycan millətinin ideologiyası olan “azərbaycançılıq” sonralar müstəqil dövlət quruluşu prosesində rəsmi ifadəsini də məhz Heydər Əliyevin hakimiyyəti dövründə tapmışdı.

Milli-mənəvi dəyərlərimizin qorunmasında tarixi yaddaşımızın canlı şahidi olan İçərişəhərin özünəməxsus yeri var. Hələ 70-80-ci illərdə Ulu Öndər milli şüurun formalaşmasında, milli-mənəvi dəyərlərin aşılanmasında, vətənpərvər nəsillərin yetişdirilməsində, tarixi keçmişin, maddi-mədəniyyət abidələrinin tərbiyyəvi rolunu yüksək qiymətləndirdiyi üçün İçərişəhər tarix-memarlıq qoruğu elan olundu. O dövrün sənədlərində xüsusi yer İçərişəhərə ayrılırdı. İçərişəhərə xüsusi diqqətin verilməsində əsas məqsəd tariximizin sinvollarından biri hesab edilən, qala divarları ilə, küçələri ilə bir qədim şəhərsalma nümunəsi olan bu məkanı qoruyub saxlamaq və olduğu kimi gələcək nəsillərə çatdırmaq idi. Bununla belə orada yaşayan insanlar üçün şəraitin yaradılmasına da xüsusi diqqət yetirilirdi. Ümumilli liderin 1993-cü ildə təkrar Azərbaycana qayıdışı milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin tədqiqi və təbliği işinə qayıdış kimi də dəyərləndirilə bilər. 2000-ci ildə İçərişəhərin YUNESKO-nun Dünya Mədəni İrsi Siyahısına salınması bu istiqamətdə görülən gərgin əməyin nəticəsi oldu. [9,117]

“Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir ” - ana dilimizə sahib çıxaraq belə deyirdi Ulu Öndər. [15, 1] Heydər Əliyev dövlət dili sahəsindəki fəaliyyətinə Azərbaycanda rəhbərliyə gəldiyi ilk günlərdən başlamışdı. 1970-ci illərdə dil məsələsi yenidən gündəm olur. Milli dillərin sıxışdırılması prosesi daha da güclənir. “Vahid dil” siyasəti daha geniş şəkildə təbliğ olunaraq rus dilinin ön plana çıxarılması qərara alınır. Bu siyasət 1977-ci ildə SSRİ-nin yeni konstitusiyası təsdiq edilərkən özünü açıq şəkildə biruzə verdi. Konstitusiyada əvvəldən dövlət dili haqqında maddə yox idi və ayrı-ayrı respublikalarda qəbul edilmiş konstitusiyanın heç birində həmin maddə öz əksini tapmamışdı. Bu konstitusiya bütün respublika üçün baza rolunu oynayırdı. 1978-ci ildə AZ.SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikasının konstitusiyasının və onun ümumxalq müzakirəsi yekunlarına həsr olunmuş VII sesiyasında məruzə ilə çıxış edən Heydər Əliyevin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiya ilə verilməsi təklif olunmuşdu: “Az.SS Respublikasının dövlət dili Azərbaycan dilidir”. 1978-ci il konstitusiyası dilimizin qorunmasında Heydər Əliyev tərəfindən bizə edilən ən böyük ərmağandır. Nəticədə konstitusiya böyük tarixi şəxsiyyət Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusunu aldı.[1,31] 1992-ci ilin dekabırında dövlət dilinin adını dəyişdirib “Türk” dili qoysalar da, 1993-cü ildə yenidən hakimiyyətə gələn Heydər Əliyev ana dilimizi- Azərbaycan dilinin adını özümüzə qaytardı. 1995-ci ildə geniş müzakirələrdən sonra ümumxalq səsverməsi nəticəsində (referendum) qəbul olunmuş konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının Dövlət dilinin Azərbaycan dili olması öz əksini tapmışdır. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirilmişdi.[4,24]

***Milli-mənəvi dəyərlərimiz və təhsil.*** Heydər Əliyevin zəngin irsinin tədqiqinin və mənəvi tərbiyə, əxlaq, vətənpərvərlik tərbiyəsi ilə bağlı müdrik kəlamlarının öyrənilməsi və təbliği müasir gənclik üçün bir prioritet rolunu oynayır. Tərbiyə problemi cəmiyyətin sosial-iqtisadi durumu, ictimai-siyasi qurluşu ilə birbaşa bağlıdır. "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən aslı olacaqdır" - deyən Heydər Əliyev Azərbaycanın bu günkü və gələcək nəsillərinin nəyi və necə öyrənəcəklərinə xüsusi fikir verdiyini vurğulamışdır. [8, 88] Gəncliyin qarşısında çox böyük məsuliyyət qoyan Heydər Əliyev Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi üçün fədakarlıqla çalışmağı, milli birliyimizə sədaqətlə xidmət göstərməyin vacib olduğunu qeyd etmişdi. Heydər Əliyev müxtəlif illərdə gənclərlə, ziyalılarla görüşlərində mənəvi tərbiyə ilə bağlı söylədiyi fikirlər, hadisə və təzahürlərin tərbiyəvi baxımından irəli sürdüyü müddəalar cəmiyyət qarşısında, ilk növbədə məktəb qarşısında duran vəzifələrin həlli baxımından olduqca qiymətlidir. Təsadüfi deyil ki, Heydər Əliyev təhsil işçiləri ilə çoxsaylı görüşlərində mənəvi tərbiyə məsələlərindən danışarkən daim məsləhət görürdü ki, bazar iqtisadiyyatı şəraitində rəqabətə davamlı mütəxəsislər hazırlamaq üçün yüksəkixtisaslı elmi işçilərin, təhsil müəssisələri və idarəetmə orqanları rəhbərlərinin olması vacibdir. Onun fikrincə müasir təhsil sistemi rəhbərlərinin qarşısında aşağıdakı tələblər qoyulmalıdır: peşə biliklərinə malik olmaqla yanaşı, həm də yüksək əxlaqi və iradi keyfiyyətləri özündə birləşdirməlidir, pedaqoji prosesləri təhlil edib ümumiləşdirməyi bacarmalıdır, işə yaradıcı münasibət bəsləməli, bazar şəraitində təhsil müəssisəsinin məqsəd və perespektivlərini görməlidir. Bu cür insanlar üçün təhsil sisteminin idarə olunmasının və təşkilinin müasir metodlarına dair bilikləri mənimsəmək, təhsil sahəsindəki yenilikləri layiqincə qiymətləndirmək zəruridir. Yalnız bu halda məktəb, ümumilikdə təhsil sistemi tərbiyə sahəsində qarşıya qoyulmuş vəzifələrin öhdəsindən uğurla gələ bilər. [12, 164] Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər Azərbaycan təhsilinin intibah mərhələsi, qızıl dövrü kimi tarixdə yer alıb. XX əsrin 70-ci illərindən etibarən respublikada kadr potensialı yaratmaqla güclü milli təhsil quruculuğu istiqamətində cəsarətli addımlar atmış, öz üzərinə götürdüyü bu missiya ilə böyük tarixi şəxsiyyət sonrakı uğurların bünövrəsini qoymuşdu. O, özünün şəxsi və bütün əməli işlərində xalqın yanında olduğunu daima nümayiş etdirmiş, elm və təhsilimizin himayəçisi olmuşdur. O yaxşı bilirdi ki, millətin nicatı, xalqın pərvərişi elmdən, təhsildən, məktəbdən, keçir. O, düşünürdü ki, bu xalq bir gün istibdad zəncirini qırıb min illər boyu arzusunda, həsrətində olduğu dövlət müstəqilliyinə qovuşanda, ona ali məclislərdə, beynəlxalq qurumların nüfuzlu tribunalarında milləti ləyaqətlə təmsil edə biləcək geniş dünyagörüşlü, bilikli, zəkalı, idarəetmə orqanlarının bütün vəzifələrində bacarıqlı mütəxəsislər, kadrlar lazım olacaq. O, uzaqgörən dahi insan əl altından bu nəcib məsələlərin həlli ilə dərindən məşğul olmağa başladı. Hər il minlərlə Azərbaycanlı gəncin kecmiş ittifaqın qabaqcıl, nüfuzlu elm ocaqlarında təhsil almasına yardımçı oldu.

Hər bir cəmiyyətin inkişafı, maddi-mənəvi tərəqqisi gənclərə doğru istiqamətin verilməsindən siyasətinin düzgün qurulmasından, gənclərin sosial, psixoloji vəziyyətindən, fəaliyyət şəraitindən bilavasitə aslıdır. Bunu çox gözəl anlayan Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıdandan sonra çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də gənc nəslə diqqət və qayğının artırılması, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsi, respublikamızın sosial iqtisadi, ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, gənclərin sosial-mənəvi ehtiyaclarının ödənilməsi, onların gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün münbit şəraitin yaradılması olmuşdur. Gənclərlə iş sahəsində dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq, Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü ilin iyul ayının 26-cı bu siyasəti həyata keçirərək Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Yeni nazirliyin qarşısına qoyulan əsas məsələlərdən biri böyüməkdə olan nəslin Vətənə, xalqa məhəbbəti ruhunda tərbiyə olunması, gənclərin sosial iqtisadi problemlərinin həlli, gənc nəslin hərtərəfli inkişafı üçün şəraitin yaradılması olmuşdur.

Təhsilə və elmə yiyələnməyin vacibliyini xüsusi vurğulayan Heydər Əliyev göstərir ki, bizim gənclərimizin vəzifəsi təhsil almaq və muasir tələblərə uyğun olan səviyyəyə qalxmaqdır. "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul

etməlidir” – deyirdi Heydər Əliyev. [3, 59] Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri də mənəvi tərbiyə məsələsinin olduğunu qeyd edən prezident gəncləri ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən mənimsəməyə çağırmış və göstərmişdi ki, milli dəyərlərimizi, milli ənənələrimizi, dilimizi, dinimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Təhsilin özü ilə bərabər təhsil ocaqlarına da xüsusi diqqət ayıran Heydər Əliyev üçün Bakı Dövlət Universiteti təkcə elm ocağı deyildi, həm də oranın məzunu idi. Universitetin çoxmilli kolektivi öz dahi məzunu ilə fəxr etdiyi kimi, Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə bildirmişdi: “Mən çox xoşbəxtdəm ki, Bakı Dövlət Universitetinin məzunuyam”. Heydər Əliyev bu təhsil ocağını “Azərbaycan xalqının milli sərvəti, milli iftixarı” adlandırmış, ona daima diqqət və qayğı ilə yanaşmışdır. [7, 59; 5, 7] Ümumilli liderimiz həm respublikada işləyərkən, həm də keçmiş İttifaqda yüksək vəzifələrdə olarkən həmişə universitetin həyatı ilə maraqlanmış, onun inkişafının qayğısına qalmışdır. Heydər Əliyevin Bakı Dövlət Universitetinə qayğısı və diqqətinin çox böyük göstəricilərindən biri onun yubleylərinin keçirilməsidir. Onun təşəbbüsü və fəal iştirakı ilə BDU-nun yubleylərini keçirməsi (1969-cu ildə 50 illiyi, 1980-cı ildə 60 illiyi, 2009-cu ildə 90 illiyi) reallığa çevrilib. Univerisitet təhsildə də, elmin inkişafında da maddi bazanın möhkəmləndirilməsi sahəsində də ən böyük naliyyətləri məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-cu il ildən 1982- ci ilə qədər olan birinci dövrü və 1993-cü ildən sonrakı dövrü sözün həqiqi mənasında xalqımızın elminin, mədəniyyətinin, təhsilinin hərtərəfli tərəqqisi ilə seçilən mərhələlər adlandırmaq olar.

***Heydər Əliyev milli - mənəvi dəyərimizdir.*** Fənni kurikulumuna əsaslanaraq tarix fənnində beş əsas məzmun xəttindən dördüncüsü şəxsiyyətdir. Bu heç də təsadüfi deyil. Təhsilin qarşıya qoyduğu məzmun xəttı ölkəmizin dövlətçiliyinin möhkəmlənməsində rolu olan şəxsiyyətlərin təbliğ edilməsidir. Şəxsiyyətlərin şagirdlərə təbliğ edilməsi Azərbaycan dövlətinin gələcəkdə daha güclü sütunların üzərində durması deməkdir. İnsan öz dövlətinin keçmişi- qüdrətli tarixi ilə fəxr edir. Əzəmətli keçmişinə baxan gənc gələcəyini daha parlaq görür. Öyrənilməsi vacib olan şəxsiyyətlərdən başlıcası Heydər Əlirza oğlu Əliyevdir. O, ötən əsrin son 30 ilində müstəqil dövlətin qurulmasına zəmin yaradan bir çox işlər görmüşdü. Bu işlərin bir çoxu 1970-80-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə və onun bilavasitə rəhbərliyi altında həyata keçirilmişdir. Bu mənada, Heydər Əliyevin Azərbaycanın tarixində ən vacib naliyyətlərindən biri dövlətimizi azərbaycanlılaşdırmasıdır. Milli-mənəvi dəyərlər və Azərbaycançılıq - bu sözlər milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşımızın fundamental prinsiplər əsasında formalaşmasının nümunəsidir. 1993-cü ildə Ulu öndərin hakimiyyətə qayıdışı ilə gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – Azərbaycançılığın təşəkkül və inkişafına müstəsna dəyər vermişdir. [2,78] Ulu Öndər özü gördüyü işlərlə artıq bir irs qoyub getmişdir. O irs ki, hər bir sahəsi ayrı-ayrı tədqiq olunacaq qədər geniş və bir ömrə sığacaq qədər də əzəmətlidir. Gələcək nəsillər üçün örnək həyat yolu və Azərbaycan xalqının milli, mədəni, siyasi dəyərlərini özündə ehtiva edən Ümumilli lider 2003-cü il dekabrın 12-dən sonrakı tarix etibarı ilə xalqımın milli dəyərinə çevrilmişdir.

Böyük ideoloq olan, yenilməz siyasət adamı Heydər Əliyev vətənpərvər Azərbaycan oğludur. O, ölkəmizdə milli dövlətçilik ideologiyasının-Azərbaycançılığın həm konsepsiyasını, həm də onu addım - addım həyata keçirən praqmatik böyük dövlət xadimidir. Onun son illərdə azərbaycançılığın təməl prinsipləri olan ana dilinə, milli tarix və mədəniyyətə, milli adət və ənənələrimizə, milli mənəviyyatımıza, milli mentalitetimizə dair çoxsaylı fərmanları və həyata keçirdiyi qlobal işlər deyilənləri bir daha təsdiqləyir. Hələ AZ.KPMK-nin I Katibi vəzifəsində olarkən Azərbaycanın adət-ənənələrinə hörməti dövlət səviyyəsinə qaldırmışdı. Məhz onun dövründə respublikada məscidlərin tikilməsi, dini ayinlərin icrası kifayət qədər sərbəst idi. Ulu öndərin ömür gün yoldaşı- Zərifə xanım vəfat etdikdə Bütün Qafqazın Şeyxi - Hacı Allahşükür Paşazadəni Moskvaya dəvət etmişdi. Bu onun dinə münasibəti idi. [2, 76] Sovet dövründə qeyd olunması qadağan edilmiş Novruz Bayramını Heydər Əliyev evlərdən küçə və meydanlara çıxardı və geniş vüsət almasına bir daha şərait yaratdı. Ömrünün 50 ildən çoxunu Azərbaycan xalqının,

Azərbaycan dövləti və dövlətçiliyinin taleyi ilə sıx bağlı olan, iqtisadiyyatımızda, milli ideologiya və mənəviyyatımızda, mədəniyyətimizdə, elmimizdə, təhsilimizdə və digər sahələrdə misli görünməyən işlər görən, dünya şöhrətli şəxsiyyət olan Ulu Öndər Heydər Əliyevin fəaliyyəti heç vaxt xalqımızın qan yaddaşından silinməyəcək, bu böyük şəxsiyyətə daim hörmət və ehtiram ediləcəkdir. [13, 11] Heydər Əliyev ömrü çətinliklə böyüyən bir gəncin israrlı həyat mübarizəsidir. Bu gəncin həyat yolu müasir dövr gəncliyi üçün bir örnəkdir, gələcəyə inamdır. İçində olduğu rejimin çətinliyinə baxmayaraq azərbaycançılığını heç vaxt unutmayan dahi şəxsiyyət, qüvvətli zəkası ilə xalqını da qorumağı bacarırdı. Bax bu əsl öyrəniləcək həyatdır, nümunəvi həyat. Zəif, qorxaq addımlarla ayağını yerə basan gənclər üçün əsl örnək, şərəfli ömür yolu. Sevgisinə sahib çıxan, ailəsini hər təhlükədən qoruyan, xalqını gözlənilən və gözlənilməyən fəlakətlərdən hifz edən bir ömür yolu. Bu ömür yolu gənclik üçün prioritet rolunu oynamalıdır.

## İstifadə olunmuş əddəbiyyat siyahısı:


1. Dünyanı heyran qoyan insan. Bakı, 2004.
2. Heydər Əliyev. Ömür və zəmanə1923-2003. Bakı, 2006.
3. Heydər Əliyev-90. Xalqa həsr olunan ömür. Milli Məclis analitik informasiya jurnalı(xüsusi buraxılış), 2013 may.
4. “Xalq nəzarəti” jurnalı. Heydər Əliyev-85. 2008 may.
5. **Məhərrəmov. A. M.** Bakı Dövlət Universiteti. Bakı, 2009.
6. Əliyev Heydər Müstəqilliyimiz əbədidir. II kitab, Bakı, 1997.
7. **Süleymanov R. C.** Bakı Dövlət Universitedinə Heydər Əliyev qayğısı. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Ümumilli lider Heydər Əliyevin 90 illik həsr olunur. Xüsusi buraxılış 2, Bakı 2013.
8. **Cəfərov H.** Müstəqillik dövründə dövlət gənclər siyasətinin formalaşmasında Heydər Əliyevin rolu. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Ümumilli lider Heydər Əliyevin 90 illik həsr olunur. Xüsusi buraxılış 2, Bakı, 2013.
9. **Quliyeva V.** Heydər Əliyevin İçərişəhərin qorunmasında rolu. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Ümumilli lider Heydər Əliyevin 90 illik həsr olunur. Xüsusi buraxılış 2, Bakı 2013.
10. **Axundova N. R.** Heydər Əliyev Azərbaycan mədəniyyətinin hamisidir. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Ümumilli lider Heydər Əliyevin 90 illik həsr olunur. Xüsusi buraxılış 2, Bakı, 2013.
11. **Kərimova T. S.** Heydər Əliyev və Azərbaycan elmi müstəqillik illərində. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Ümumilli lider Heydər Əliyevin 90 illik həsr olunur. Xüsusi buraxılış 2, Bakı 2013.
12. **Məmmədova M. S.** Heydər Əliyev və müstəqil Azərbaycan Respublikasında Təhsil strategiyası. Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Ümumilli lider Heydər Əliyevin 90 illik həsr olunur. Xüsusi buraxılış 2, Bakı 2013.
13. **İslam Əsgəroğlu, Ağababa İbrahimov**.Zəmanəmizin böyük Azərbaycanlısı. Bakı, 2002.
14. **Əmrulla Paşayev**. Milli-mənəvi dəyərimizə həsr olunmuş kitab. Azərbaycan məktəbi jurnalı № 4, 2010.https://azertag.az/xeber/HEYDAR_ALIYEV_VA_AZARBAYCAN_DILI-7480